http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 04 (1622) 29 fevral 2016 - cı il Qiymәti 50 qәpik

# Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib

**Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.






## BU SAYIMIZDA





XOCALI SOYQIRIMININ 24-CÜ İLDÖNÜMÜ ANILDI 2

"Orqan transplantasiyası" mövzusunda II beynəlxalq elmi konfrans 3



Yunus Emre İnstitutunun direktoru ATU-da qonaq olub 3



Ağciyər patologiyasına dair beynəlxalq konfrans 5

Ana və uşaq sağlamlığının mühafizəsinə həsr edilmiş müzakirə aparılıb 4



ATU-nun Stomatoloji Klinikasında tələbələrin bilik və bacarıqlarının qiymətləndirmə meyarlarına həsr edilmiş seminar-müşavirə keçirilib 4



"İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir" mövzusunda seminar 5

Endokrinologiya üzrə elmi-praktik seminar 8

# XOCALI SOYQIRIMININ 24-CÜ İLDÖNÜMÜ ANILDI

**Fevralın 23-də Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş tədbir keçirildi.**




**Tədbiri açan ATU-nun rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev ən qəddar və amansız terror hadisələrindən biri olan Xocalı soyqırımı haqqında danışarkən XX əsrdə Azərbaycan xalqının yaşadığı faciələri, soyqırımları, qətliamları demək olar ki, heç bir xalqın yaşamadığını vurğuladı:** "Xalqımız 1905 və 1918-ci illərdə soyqırıma, 1948-ci ildə deportasiyaya, 1988-ci ildə isə təkrarən həm deportasiya, həm də soyqırıma məruz qalıb. Bunu ona görə xatırladıram ki, bizim xalq çox unutqan xalqdır. Amma bəzi xalqlar, xüsusilə ermənilər olmayan hadisələri, uydurduqları yalanları dünyaya həqiqət kimi təqdim etməkdən çəkinmirlər. Ona görə də bütün başımıza gətirilən bu faciələri indiki və gələcək nəslə olduğu kimi çatdırmaq borcumuzdur. Əgər bunu etməsək, tarix bizi bağışlamaz. Özümüzdən başqa heç kimə güvənə bilmərik. Tarix də göstərir ki, başqa yolumuz yoxdur. Ümummilli liderimiz Heydər Əliyevin daxili və xarici siyasət xəttini uğurla davam



etdirən Prezidentimizin ətrafında sıx birləşməliyik".

Son illərdə Amerikanın 20-dən artıq ştatında, bəzi Avropa, Şərq ölkələrində Xocalı soyqırımının tanınmasını ölkə başçısının apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirən S.Əliyev işğal altındakı torpaqlarımızın tezliklə milli or-



dumuzun gücü ilə azad ediləcəyinə inandığını da söylədi.

Xocalı faciəsində həlak olmuş insanlar bir dəqiqəlik sükutla anıldıqdan sonra tədbir öz işinə davam etdi.

ATU-nun insan anatomiyası kafedranın professoru Mübariz Allahverdiyev bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımını öz ağlasığılmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktı kimi səciyyələndirdi: "Xocalı soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir – bu sözləri ilk dəfə ümummilli lider Heydər Əliyevin dilindən eşitdim. Bu sözlərin mənası çox dərindir. Məhz ulu öndər ilk dəfə Xocalı soyqırımına siyasi qiymət verərkən bu ifadələri işlətmişdi. Bu ifadələr lakonik şəkildə həm Xocalı soyqırımının əsas mahiyyətini açıqlayır, həm də bu günümüzdə, gələcəyimizdə Xocalı soyqırımını tanıtmaq, bəşəriyyəti erməni vəhşiliklərindən qorumaq



istiqamətində güclü projektor kimi yolumuzu işıqlandırır".

M.Allahverdiyev həmçinin qeyd etdi ki, Xocalı sakinlərinə qarşı edilən hücumun səbəbi nə olursa olsun, onların heç birinə bəraət qazandırmaq olmaz: "Yüzlərlə insan qətlə yetirilib. Onların arasında 106 nəfər qadın, 63



nəfər az yaşlı uşaq, 70 nəfər qoca öldürülüb. 8 ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150-sinin taleyi indi də məlum deyil.

1000 nəfərdən çox müxtəlif yaşlı dinc sakin aldığı güllə və qəlpə yaralarından əlil olub".

Öz ailəsinin, doğmalarının başına gələn faciələri ürək ağrısı ilə yada salan M.Allahverdiyev Xocalı sakinlərinin qəhrəmanlıq səhifəsindən də söhbət açdı: "Dörd ildən artıq blokada vəziyyətində olan Xocalılar dəfələrlə silahlı erməni quldurlarının hücumlarına məruz qaldılar. Belə hücumlardan biri 1988-ci il sentyabrın 18-də olmuşdu. Moskvadan televiziya ilə xəbər verilmişdi ki, Xocalılarla ermənilər arasında qanlı toqquşma olub. Sentyabrın 19-da qatarla Ağdama getdim, çünki Xocalıya gedən yollar bağlı idi. Xocalıya getmək üçün bir gürcü hərbçisinin BTR-ini gözləməli oldum. Ağdamda dedilər ki, yalnız o, hərdənbir Xocalıları Ağdamdan Xocalıya gizlin aparır. Xocalıya çatanda gürcü hərbçi lükü açıb məni düşürdü. 19-u axşam Həsən Həsənov da vertolyotla Xocalıya gəlmişdi. Həmin gün 5-6 min erməni Xankəndində mitinq keçirdikdən sonra Xocalıya hücum etmək və kəndi yandırmaq qərarına gəlmişdilər. Xocalılar qəfil hücumu gözləməsələr də, ermənilərlə əlbəyaxa döyüşdən qalib çıxmışdılar. Bundan sonra ermənilər Xocalıya hücum etməyə cürət etmirdilər. Bu, Xocalıların ilk qalibiyyəti idi. Bu qalibiyyət tarixə düşüləsi, gələcək nəsillərə çatdırılası bir qalibiyyət idi".

Ulu öndərin apardığı siyasətin son illər Xocalı soyqırımını tanıtmaq yolunda daha inamlı şəkildə yerinə yetirildiyini söyləyən M.Allahverdiyev bu istiqamətdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın möhtəşəm işlər gördüyünü, bu yaxınlarda çəkilişi tamamlanan "Sonsuz dəhliz" sənədli filminin dünyanın bir çox ölkələrində nümayiş etdirildiyini dedi.

Daha sonra ATU-nun ictimai fənnlər kafedrasının müdiri, professor Qoşqar Əliyev çıxış edərək bildirdi ki, Xocalı soyqırımı XX əsrin sonu üçün ilk soyqırım deyil: "Düzdür, bütün əvvəlki soyqırımların ən dəhşətlisidir. Burada insanlara qarşı edilən rəftar heç bir müharibə qanunlarına tabe deyil. Müharibənin də, işğalın da öz qanunları var".

Xocalıda törədilən vəhşiliklərin hətta erməni yazıçılarının əsərlərində təsvir olunduğuna dair nümunələr gətirən natiq bu soyqırımı eyni zamanda arxeloji baxımdan zəngin olan qədim yaşayış məskənindən xalqımıza məxsus tarixi mədəniyyət abidələrinin izini silmək cəhdi kimi dəyərləndirdi.

"Hazırda 60-dan çox ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən "Xocalıya ədalət" beynəlxalq informasiya və təşviqat kampaniyası bu işə öz töhfəsini verməkdədir" – deyən ATU-nun II müalicə və profilaktika fakültəsinin IV kurs tələbəsi Xatın Məmmədova bildirdi ki, biz gənclər görünməz həqiqətlərimizi bütün dünyaya tanıdacaq, eşidilməyən haqq səsimizin eşidilməsinə nail olacağıq. Qarabağımızı geri qaytaracağıq. Milyonlarla Azərbaycan gənci inanır ki, günahsız yerə qətlə yetirilmiş soydaşlarımızın qanı yerdə qalmayacaq.

Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün görülməsi vacib olan işlərdən danışan natiqlər ölkə rəhbərliyinin qətiyyəti ilə Xocalının azad olunacağı günü səbirsizliklə gözlədiklərini və bu günün tezliklə gələcəyinə əmin olduqlarını bildirdilər.

Heç vaxt unutmamalıyıq ki, Xocalı soyqırımı 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə



və soyqırımı siyasətinin qanlı səhifəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağda erməni quldur birləşmələri keçmiş sovet ordusuna məxsus 366-cı alayın əsgər və zabitləri ilə birlikdə 7 min nəfərədək əhalisi olan Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları, ağlasığmaz vəhşiliklə öldürüblər.

Rəsmi məlumatlarda göstərilir ki, Xocalı soyqırımı zamanı 613 nəfər vəhşiliklə, amansızcasına qətlə yetirilib.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# “Orqan transplantasiyası ” mövzusunda II beynəlxalq elmi konfrans

**Fevralın 19-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Türkiyənin İnönü Universiteti ilə ATU – nun birgə təşkil etdiyi “Orqan transplantasiyası” mövzusunda II beynəlxalq elmi konfrans keçirildi.**

Konfrans iştirakçıları ilk öncə bu günlərdə qardaş Türkiyədə baş vermiş terror aktında həlak olan insanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri giriş sözü ilə açan ATU-nun rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev universitetimizin ənənəvi olaraq bir çox beynəlxalq əhəmiyyətli konfrans, konqres və simpoziumlara ev sahibliyi etdiyini vurğuladı, bu istiqamətdə aparılan işlər üçün əlverişli şəraitin yaradıldığını diqqətə çatdırdı.

Mövzunun aktuallığından bəhs edən S.Əliyev orqan nəqlinin son illərdə dünyada və ölkəmizdə geniş vüsət aldığını bildirdi: “Bu gün orqan transplantasiyası inkişaf etmiş ölkələrdə olduğu kimi ölkəmizdə də tibbi xidmətin ayrılmaz bir hissəsini təşkil edir. Artıq xəstələrimiz orqan transplantasiyası üçün xaricə üz tutmur. Son dövrlər ölkəmizdə səhiyyənin başqa sahələri kimi orqan köçürülməsi işində də uğurlu nailiyyətlər əldə olunub. Bizim hal-hazırda Tədris Cərrahiyyə Klinikasında bu istiqamətdə ciddi işlər gedir. Bir neçə il bundan qabaq bizim mütəxəssislərimiz Türkiyənin bir sıra universitetlərinə getdilər və orada böyük təcrübə toplayaraq klinikalarımıza qayıdıblar”.

Universitet klinikalarının son illər ən müasir tibb avadanlıqları ilə təchiz olunduğunu qeyd edən prorektor orqan transplantasiyası sahəsində yüksək səviyyəli kadrların hazırlanmasında qardaş Türkiyənin bu sahə ilə məşğul olan mütəxəssislərinin rolunun danılmaz olduğunu vurğuladı: “Malatya İnönü Universitetinin, Qaraciyər Transplantasiyası İnstitutu bu sahədə özünü tanıtmış, hər il 300- dən artıq qaraciyər əməliyyatlarını uğurla həyata keçirildiyi bir institutdur. Avropada bu sahədə irəliləmiş ilk institutun bizim universitetlə belə sıx əlaqələrinin olması sevindirici haldır”. Sözünə davam edən S.Əliyev ATU-nun əməkdaşlıq etdiyi bir çox universitetlər sırasında İnönü və Başkent universitetlərinin də olduğunu diqqətə çatdırdı və konqresin işinə uğurlar arzuladı.



Tədbirdə Malatyanın İnönü Universitetinin Qaraciyər Köçürülməsi İnstitutunun direktoru, professor Sezayi Yılmaz ölkələrimiz arasında gündən-günə möhkəmlənən dostluq əlaqələrindən danışdı, konqresin gənc mütəxəssislər üçün faydalı olacağını, belə tədbirlərin klinikalarımız arasında işgüzar əlaqələrini daha da möhkəmləndirəcəyini bildirdi. “Dünyada və Türkiyədə canlıdan-canlıya qaraciyər transplantasiyası” mövzusunda çıxış edən S.Yılmaz rəhbərlik etdiyi institutun dünyanın sayılıb-seçilən klinikaları ilə rəqabət apardığını və onun universitet əməkdaşları ilə birgə hər il neçə-neçə insan üzərində qaraciyər əməliyyatlarını uğurla həyata keçirdiyi haqqında tədbir iştirakçılarına məlumat verdi.





Sonra Tədris Cərrahiyyə Klinikasının direktoru, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov rəhbərlik etdiyi klinikada tibbin bu sahəsi üzrə mütəxəssislərin rahat işləməsi üçün hər cür şəraitin yaradıldığını, yeni avadanlıqların quraşdırıldığını diqqətə çatdırdı və sözü məruzəçilərə verdi.

Məruzəçilərin mövzularında ölkəmizdə və Türkiyədə tibbin bu sahəsindəki mövcud problemlərdən bəhs olundu. Onlar çıxışlarında bu konfransın təcrübə mübadiləsi baxımından əhəmiyyətini xüsusi vurğuladı və konfransın təşkilinə yaradılan şəraitə görə təşkilatçılara öz minnətdarlıqlarını bildirdilər.

Çıxışlardan sonra konfrans panel iclasları üzrə öz işini davam etdirdi. İclaslarda səhiyyənin ən vacib sahələrindən biri sayılan orqan transplantasiyasına dair ən son yeniliklər, bu sahədə əldə olunan nailiyyətlər və gələcəkdə qarşıda duran problemlərlə bağlı məruzələr edildi. İclaslarda həmçinin orqan transplantasiyasında infeksiya, anesteziya və belə xəstələrdə virus hepatitləri barədə də məruzələr dinlənildi, dünyada və o cümlədən Türkiyə və Azərbaycanda orqan köçürülməsinin müasir problemləri barədə hərtərəfli müzakirələr aparılaraq geniş fikir mübadiləsi oldu.

Konfransın işində orqan transplantasiyası ilə məşğul olan hər iki ölkənin qabaqcıl mütəxəssisləri ilə yanaşı, gənc alimlər və rezidentlər də iştirak edirdilər.

**MƏNSUR**

# Yunus Emre İnstitutunun direktoru ATU-da qonaq olub

Bu günlərdə Türkiyənin Yunus Emre İnstitutunun nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub.



ATU rəhbərliyi ilə görüş zamanı universitetin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev qonaqları salamlayaraq onlara ali məktəb haqqında qısa məlumat verərək ATU-nun ali tibbi təhsil sahəsində Azərbaycanın ilk və yeganə məktəbi olduğunu bildirib. S.Əliyev bu müəssisədə tələbə və rezidentlər üçün yaradılan şərait, uğurlu tədris prosesi, universitetin professor-müəllim heyəti, peşəkar həkimləri haqqında da bilgi verib. O, qeyd edib ki, 6 fakültəsi olan bu ali təhsil ocağında 160-dan çox professor, 320 dosent, 800-ə yaxın elmlər namizədi və ümumilikdə 1300 nəfər akademik personal çalışır. Hazırda universitetdə 7000-dən çox tələbə və rezident, həmçinin 1000-dən çox xarici ölkə vətəndaşları olan tələbələr təhsil alır. Onlar arasında Türkiyədən olan tələbələr üstünlük təşkil edir.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova universitetin beynəlxalq əlaqələrindən söz açaraq son illər ərzində dünyanın bir çox aparıcı ali təhsil müəssisələri ilə münasibətlər yaradıldığını bildirib. Xanım Qabulova ATU ilə Türkiyənin Hacettepe, İstanbul, Ankara və bir çox tanınmış universitetləri ilə əməkdaşlıq sazişi imzalandığını, birgə tədbirlər reallaşdırıldığını söyləyib. Həmçinin, ATU-nun iştirak etdiyi beynəlxalq təcrübə və mübdilə proqramları haqqında da məlumat səsləndirilib.

Yunus Emre İnstitutunun direktoru İbrahim Yıldırım təkcə Azərbaycanda deyil, hətta regionda da özünü təsdiqləmiş Tibb Universiteti ilə tanışlıqdan çox məmnun olduğunu bildirib. Qonaq, ATU-dan Türkiyəyə gələn tələbələrin olduqca fəallıq nümayiş etdirdiklərini, lakin onların Türk dilini mükəmməl bilməməsi üzündən bəzi çətinliklər yaşadıqlarını da qeyd edib. Buna görə də cənab Yıldırım Azərbaycan Tibb Universitetinin tələbə və rezidentlərinə, həkimlərinə Türk dilinin özəlliklərini öyrətmək niyyətində olduqlarını bəyan edib.

Müzakirələr zamanı Yunus Emre İnstitutu ilə birlikdə tanıtım xarakterli seminar keçirilməsi haqqında razılıq əldə olunub.

Qeyd edək ki, Yunus Emre İnstitutunun əsas missiyası türk dilini, mədəniyyətini tanıtmaq, Türkiyənin digər ölkələrlə dostluğunu genişləndirmək, türk dili üzrə təhsil almaq istəyənlərə xaricdə də xidmət göstərməkdən ibarətdir.

**ATU-nun mətbuat xidməti**

# Ana və uşaq sağlamlığının mühafizəsinə həsr edilmiş müzakirə aparılıb

**Azərbaycanda hamiləliyin gedişi və doğuş zamanı ana və uşaq sağlamlığının qorunması daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olub. Bu məsələ ilə bağlı mütəmadi olaraq araşdırmalar aparılır, yüksək nəticələr əldə edilməsi məqsədilə dövlət və hökumətimizin ən yüksək səviyyələrində konkret addımlar atılır.**



Səhiyyə Nazirliyinin 02 fevral 2016-cı il tarixli kollegiyasında bu sahədə görülən işlərin səviyyəsini yüksəltmək üçün əməli təkliflər səsləndirilib.





Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında da kollegiyanın nəticələrinə uyğun olaraq hamiləlik və doğuş zamanı yaşanacaq problem və mümkün fəsadların aradan qaldırılmasına həsr edilmiş geniş toplantı keçirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev ana və uşaq sağlamlığı ilə bağlı müəyyən problemlərin mövcud olduğunu, bunların inkişafına əvvəlcədən yol verilməməsi və aradan qaldırılması üçün müvafiq tədbirlər görüldüyünü bildirdi. Professor ginekoloqları tibbi göstərişlər olmadan "Qeysəriyyə əməliyyatı"nın aparılmasından çəkinməyi, təbii doğuşa üstünlük verməyə də çağırdı: "Son illər doğuşların böyük hissəsi qeysəriyyə əməliyyatı ilə aparılır. Halbuki, təbii doğuşla dünyaya gələn uşaqlar arasında xəstəliklər də az olur. Şəxsən mən bunun əleyhinəyəm. Həkim yalnız tibbi göstəriş olanda məcburən bu üsulu seçə bilər. Bu da yalnız 10-15 faiz hallarda ola bilər. Mama-ginekoloqlar bu məsələyə diqqət yetirməlidir".

S.Əliyev ginekoloqların yüksək peşəkarlıq və hazırlıq səviyyəsinə malik olmasının vacib olduğunu söylədi. Professorun sözlərinə görə, doğuşun müsbət nəticələnməsi üçün xəstələrin analizlərinin dəqiq müəyyənləşdirilməsi, doğum tarixlərinin düzgün tərtib edilməsinə nail olmaq lazımdır. Professor ana və uşaq sağlamlığı üçün xəstələrə peşəkar yanaşmanın önəmli olmasından da danışdı.

S.Əliyev vurğuladı ki, Azərbaycanda səhiyyə xidmətlərinin inkişafı, tibb müəssisələrinin yeni avadanlıqlarla təchiz edilməsi, tibb işçiləri tərəfindən müasir texnologiyaların mənimsənilməsi, perinatal mərkəzlərin yaradılması doğuşayardım xidmətlərinin gücləndirilməsi üçün lazımi şərait yaradılıb. O, hazırda Azərbaycan Tibb Universitetində kifayət qədər peşəkar həkim-ginekoloqların fəaliyyət göstərdiyini, lakin bu məsuliyyətli sahədə daim peşəkarlığın artırılmasına nail olmaq lazım olduğunu qeyd etdi.

Sonra Azərbaycan Tibb Universitetinin patoloji anatomiya kafedrasının müdiri, Səhiyyə Nazirliyinin doğuşayardım komissiyasının üzvü, professor Ədalət Həsənov çıxış edərək son dövrlərdə respublikada ana ölümləri sahəsindəki durum haqqında məlumat verdi. Məruzəçi öz çıxışında bildirdi ki, son illər respublikada ana və uşaqların mühafizəsi sahəsində, istər antenatal dövrdə, istərsə də perinatal mərkəzlərdə, doğum evlərində və xəstəxanaların doğuş şöbələrində əsaslı təmir işlərinin aparılması, yeni və ən müasir avadanlıq və mal-materiallarla təchizat sahəsində həddən artıq çox işlər görülmüş, respublikanın iri şəhərlərində, ayrı-ayrı regionlarda perinatal mərkəzlər yaradılmış, mama-ginekoloji xidmət yeni və müasir səviyyədə təşkil olunmuş, çox böyük nailiyyətlər əldə edilmiş, ən əsası da respublikada ana və uşaq ölümlərinin sayı əhəmiyyətli dərəcədə azalıb. Lakin bütün bunlara baxmayaraq, hələ də bu sahədə qarşıya qoyulan məqsədlər tam şəkildə əldə edilməmişdir. Təsadüfi deyildir ki, bir neçə gün əvvəl respublikada ana ölümlərinə həsr edilmiş Səhiyyə Nazirliyinin geniş tərkibdə keçirilən kollegiyasında da Səhiyyə Naziri, professor O.Şirəliyevin rəhbərliyi ilə bu məsələ ətraflı şəkildə müzakirə olunmuş, bəzi mama-ginekoloqlarımız, o cümlədən də anestezioloq-reanimatoloq və digər həkim-mütəxəssislər arasında peşəkarlıq səviyyəsinin hələ də lazımi səviyyədə olmaması barədə danışılmış, bu sahədə radikal və sərt tədbirlərin görülməsinə ehtiyac olduğu vurğulanıb.

Onun sözlərinə görə, baş vermiş hər bir letal nəticə və ağırlaşma hadisələri ilə əlaqədar Səhiyyə Nazirliyi və hüquq-mühafizə orqanları tərəfindən ətraflı araşdırmalar aparılır. Həmçinin qeyd edildi ki, profilaktika, müalicə və diaqnostika sahələrində rast gəlinən bəzi nöqsan və çatışmazlıqlarla yanaşı, hamilə qadınların özlərinin də tibbi yardım üçün gec müraciət etmələri aydınlaşır. Buna baxmayaraq, aidiyyəti tibb müəssisələri məsuliyyəti daha da artırmalı, bu çətin, məsuliyyətli və şərəfli işin təşkili və həyata keçirilməsində xəstələrin özləri də həkimlərə kömək etməlidirlər.

ATU-nun I mamalıq-ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva və ATU-nun II mamalıq-ginekologiya kafedrasının dosenti Səfa Bağırova çıxış edərək ana ölümlərinin baş verməsinin əsas səbəbləri və risk faktorları, onların qarşısının alınması və aradan qaldırılması yolları sahəsində aparmış olduğu elmi-tədqiqat işlərinin nəticələri və praktik fəaliyyəti barədə məlumat verdi.

Toplantının yekununda həmçinin ATU-nun I daxili xəstəliklər və reanimatologiya kafedrasının müdiri, professor İsfəndiyar İsmayılov, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərov, Tədris Cərrahiyyə Klinikasının baş həkimi Asiman Həsənov çıxış edərək ana və uşaq sağlamlığının təmin olunması istiqamətində atılması zəruri olan tədbirlərlə bağlı təkliflərini səsləndirdilər. Məruzəçilərin sözlərinə görə, bu sahədə yaranmış problemlərin baş vermə səbəblərini müəyyənləşdirib aradan qaldırılmasına nail olmaq, belə halların təkrarlanmasına yol verməmək üçün mütəmadi olaraq müzakirələrin aparılmasına ehtiyac var.

**ATU-nun mətbuat xidməti**

# Qiymətləndirmə meyarlarına həsr edilmiş seminar-müşavirə

- **Fevralın 15-də Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasında terapevtik stomatologiya, ortopedik stomatologiya, uşaq stomatologiyası və stomatologiya kafedralarının müəllimləri ilə tələbələrin bilik və bacarıqlarının qiymətləndirmə meyarlarına həsr edilmiş seminar-müşavirə keçirilib.**



Müşavirədə tədris-metodik və innovasiya şöbəsinin müdiri professor Akif Qurbanov tələbə məmnunluğunun vacibliyindən danışaraq bu sahədə qiymətləndirmənin mühüm əhəmiyyətini göstərərək qeyd etdi ki, istənilən halda tələbə onun bilik və bacarıqlarının düzgün qiymətləndirilməsinə əmin olmalıdır. O, semestrin sonunda tələbələrin yekun qiymətinin məhz gündəlik qiymətləndirmədən asılı olmasını bir daha nəzərə çatdırmaqla, bu sahəyə xüsusi diqqət yetirməyin vacib olduğunu bildirib. Belə ki, imtahana qədərki (gündəlik) qiymətləndirmə zamanı yekun qiymətin nəzəri biliklərdən, bacarıqlardan, sərbəst işlərdən və dərsə davamiyyətdən toplanılan balların cəmindən asılıdır.

Stomatologiya fakültəsinin tələbələri üçün bacarıqların öyrədilməsinin mühüm əhəmiyyəti qeyd edilib, bacarıqlarının tədrisi və qiymətləndirilmə



xüsusiyyətləri bir daha müəllimlərin nəzərinə çatdırılıb. Bununla yanaşı nəzəri biliklərin qiymətləndirilməsi, eləcə də, sərbəst işlərin hazırlanması və qəbul edilməsi prinsipləri şərh edilib. Müşavirədə iştirak edən Stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev və Stomatoloji klinikanın direktoru, professor Alqış Səfərov klinikadakı kafedralarda bacarıqların öyrədilməsi üçün bütün mümkün şəraitin olmasını, eləcə də Stomatoloji Klinikada bu məqsədlə xüsusi Laboratoriyanın fəaliyyət göstərməsini qeyd etdilər. Tədris prosesində qarşıya çıxan problemlərin vaxtında həll edilməsində kafedraların qarşısında duran vəzifələrdən danışdılar.

Sonda müəllimləri maraqlandıran suallar cavablandırıldı.

## Oxucuların nəzərinə

**Bu gün Azərbaycan Tibb Universitetinin növbəti Elmi Şurasının iclası keçiriləcək. İclasda "ATU-da 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" və digər məsələlər müzakirə olunacaq. Bu haqda qəzetimizin növbəti sayında daha ətraflı məlumat veriləcək.**

**Azərbaycan Tibb Universiteti mütəmadi olaraq xarici ölkələrin mütəxəssislərinin iştirakı ilə müxtəlif xəstəliklərə dair elmi konfranslar təşkil edir. Belə tədbirlərdə dünyanın aparıcı həkimləri tərəfindən məruzələr səsləndirilir, mövzu üzrə maraqlı müzakirələr aparılır.**

# Ağciyər patologiyasına dair beynəlxalq konfrans



ATU-nun Tədris Cərrahiyyə Klinikasında bu qəbildən növbəti tədbir keçirilib. Ağciyər patologiyasına həsr olunmuş konfransda Fatih Universiteti Tibb Fakültəsi Xəstəxanasının mütəxəssisləri iştirak ediblər.

Konfransın açılışında çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov bu tip tədbirlərin təşkilinin artıq ənənə halını aldığını bildirib. Professor qeyd etdi ki, ötən ay ərzində 10 mövzuda müxtəlif xarakterli konfranslar keçirilib. Qarşıdakı müddətdə isə daha yeni və fərqli mövzularda yerli və xarici ekspertlərin iştirakı ilə elmi konfranslar təşkil olunacaq.

N.Bayramov bu tədbirlərin təşkilində əsas məqsədin təcrübə mübadiləsini genişləndirmək, universitet klinikası kimi xarici əlaqələri daha da gücləndirməkdən ibarət olduğunu deyib: "Hədəfimiz dünyanın aparıcı klinikası səviyyəsinə çatmaqdır. Bu məqsədlə xarici əlaqələrimizdən faydalanırıq. Qarşılıqlı münasibətləri həm elmi, həm praktik, həm də tədris şəkində formalaşdırmaq və daha da möhkəmləndirmək niyyətindəyik".

Daha sonra tədbir Azərbaycanın cərrahiyyə üzrə bir nömrəli mütəxəssisi Çərkəz Cəfərovun moderatorluğu ilə davam etdirilib.

Fatih Universiteti Tibb Fakültəsinin dekanı "Təkmilləşdirilmiş texnikalar və ağciyər xərçəngi", professor Müzəffər Mətin "Ağciyər xərçəngi cərrahiyyəsi", Fatih Universiteti tibb fakültəsinin dekanı Levent Kart "EBUS-endobronxit", uzman dr. Gersi Alisha "Sorkoidor və yeni müalicə üsulları" mövzularında təqdimat keçirilib, iştirakçılara sertifikatlar verilib.

Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova, TCK-nın direktoru, professor Nuru Bayramov və Fatih Universiteti Tibb Fakültəsinin dekanı Levent Kart universitetlər arasında döş qəfəsi cərrahiyyəsi və reanimasiya sahəsində gələcək əməkdaşlığın istiqamətlərini müzakirə ediblər. Tələbə, rezident mübadiləsi, birgə elmi-təcrübi fəaliyyət üzrə ikitərəfli protokolun hazırlanması üçün razılıq əldə olunub.

# "İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir" mövzusunda seminar

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istehlakçıların maarifləndirilməsi istiqamətində tədbirlərini davam etdirir.**



Dövlət Xidmətinin təşkilatçılığı ilə "İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir" mövzusunda növbəti belə tədbir fevralın 23-də Azərbaycan Tibb Universitetində keçirilmişdir. Ali təhsil müəssisəsinin müəllim və tələbə heyətinin iştirakı ilə keçirilən tədbirdə məqsəd istehlakçıların hüquqlarının qorunması sahəsində hüquqi maarifləndirmə işini təşkil etmək, bu sahədə istehlakçıların biliklərini artırmaqdan ibarət olmuşdur.



Tədbiri açan ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov seminarın məqsəd və məramı ilə bağlı iştirakçıları məlumatlandırdıqdan sonra sözü qonaqlara vermişdir.

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəis müavini Araz Əliyev seminar iştirakçılarına istehlakçıların hüquqlarının qorunması sahəsində qanunvericilik bazası, istehlakçıların bilməli olduğu aktual məsələlər barədə məlumat vermiş, istehlakçı hüquqlarının təmin olunmasında dövlət orqanları ilə istehlakçılar arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmışdır.

Tədbirdə Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin sektor müdiri Yusif Hüseynov isə "Hər bir istehlakçı öz hüquqlarını bilməlidir" mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Natiq keyfiyyətsiz məhsulların bazara çıxarılmasından, yol verilən neqativ hallardan, istehlakçı hüquqlarının təmin olunması üçün məhkəmə və dövlət orqnlarına müraciət qaydalarından söhbət açmış, insanları gündəlik həyatda rast gəlinən bu kimi hallarla mübarizədə aktiv iştirak etməyə çağırmışdır.

Tədbir çərçivəsində istehlakçı hüquqları ilə bağlı tələbələri düşündürən suallar cavablandırılmış, onlara istehlakçı hüquqlarına dair müxtəlif səpkili maarifləndirici materiallar və bir çox adda buket paylanmışdır.

**M. ƏLƏKBƏRLİ**

# Hamiləykən ürəyinə mexaniki klapan yerləşdirilən qadın ana olub

Ötən ilin dekabr ayının əvvəllərində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkimləri tərəfindən ölkədə ilk dəfə olaraq hamilə qadının ürəyində əməliyyat aparılaraq, onun mexaniki klapanı dəyişdirilib. Bu, dünyada üçüncü belə uğurlu əməliyyat olub, çünkü burdakı təhlükə – əməliyyat zamanı hamilə xanımın bədən temperaturunun 33°C-yə qədər düşürülməsidir, bu vəziyyət isə döl ürəyinin fəaliyyətini dayandırma təhlükəsini artırır.



36 yaşlı qadın bu günlərdə artıq körpəsini dünyaya gətirib. Qeysəriyyə əməliyyatı ilə doğulan oğlan uşağının çəkisi 3 kq 600 qram, boyu 49 sm-dir. Əməliyyatı həyata keçirən Ginekologiya şöbəsinin müdiri Turab Canbaxışovun sözlərinə görə, hamilə qadın doğuşdan bir həftə əvvəl xəstəxanaya yatızdırılıb. Bir həftə ərzində onun üzərində doğuşa hazırlıq prosesi aparılıb (ürəyində mexaniki qapaq olduğundan yüksək dozada qan sulandırıcı dərmanlar alıb). Uşaq əvvəlcədən planlaşdırıldığı kimi, qeysəriyyə əməliyyatı ilə doğulub. Əməliyyatda təcrübəli anesteziloq, kardioloq, kardiocərrah və ginekoloqlardan ibarət böyük bir həkim briqadası iştirak edib, onların səyi nəticəsində körpə sağlam dünyaya gətirilib.

Qeyd edək ki, qadın 3 il əvvəl aorta qapaq stenozu problemi ilə həkimlərə müraciət edib. Xəstədə ürəyin aorta qapağının protezləşdirilməsi əməliyyatı icra edilib, mexaniki klapan yerləşdirilib. Əməliyyatdan sonrakı dönəmdə hansısa bir problem yaranmayıb. Lakin qadın hamilə qalmaq istəyib.

Həkimlər etiraz edərək hamiləliyin ona əks göstəriş olduğunu, dölün salamat qalması ehtimalının çox az olduğunu izah ediblər. Buna baxmayaraq, özü də həkim olan qadın hamiləliyə qərar verib. Hamiləlik müddətində xəstənin vəziyyəti pisləşib, mexaniki klapanın trombozlaşması aşkarlanıb. Bu cür hallarda tək çıxış yolu yenidən əməliyyat olunması olduğu üçün qadın təcili əməliyyata alınıb. Onun bədəninin hərarəti düşürülüb, ürəyi dayandırılıb və süni qan dövranına qoşulub. Bu cür əməliyyatlarda dölü itirmək təhlükəsi çox böyükdür. Lakin əməliyyat uğurla keçib – həm ananı, həm dölü qurtarmaq mümkün olub.

**ATU-nun mətbuat xidməti**

# Öskürəyin formaları hansı xəstəliklərdən xəbər verir?

ATU-nun Tədris Cərrahiyyə Klinikasının Torokal cərrahı, t.ü.f.d. Dr. Arif Ağayev öskürəklə bağlı bəzi məsələlərə aydınlıq gətirib.



## Hansı tip öskürəklər hansı xəstəliklərin əlamətləridir?

Ağciyərlərin xaricdən gələn kimyəvi, mexaniki və ya temperatur fərqliliyi yaradan faktorlara qarşı yaranan bir refleks olan öskürək, meydana gəlmə forması ilə müxtəlif mənalar daşıyır.

Öskürəyi tənəffüs yollarına düşmüş yad maddələrə qarşı əmələ gələn, bədənin özünü müdafiə mexanizmi kimi qiymətləndirmək olar. Bəs hansı tip öskürəklər hansı xəstəliklərin əlamətləridir?

Sağlam insan nəfəs borusunun "yad" olaraq qəbul etdiyi bəzi yeməkləri və maddələri bayıra atmaq üçün öskürür. Ətrafdan gələn bir tüstü qoxusu və ya kəskin bir yuyucu vasitənin qoxusu da öskürəyə səbəb ola bilər. Bədənin müdafiə mexanizmləri arasında önəmli yer tutan öskürək nəfəs yollarında (traxeya və bronxlarda) əmələ gəlir və bəlgəmin bayıra atılmasını təmin edir.

Bu təbii mexanizmlərdən başqa bəzi xəstəliklərin "xəbərçisi" (ilkin əlaməti) olan öskürək, uzun müddət davam etdikdə insanın əmək qabiliyyətini aşağı salır. Öskürək hava-damcı yolu ilə bəzi infeksion faktorların digər şəxslərə yayılmasına yol açır (məsələn: vərəm, sətəlcəm-pnevmoniya və s.).

Ani olaraq yaranan öskürəklər astmatik krizin başlamasını ifadə edə bilər.

Öskürək sadəcə ağciyərlərdən deyil, qulaq zarı-pərdəsi, burun, sinuslar, ağciyər zarı, mədə və diafraqmadan da başlaya bilər. Sinusit, bronxit, laringit, uşaqlarda çox tez-tez rast gələnən bronxiolit, soyuğa həssaslıq, çoxlu siqaretçəkmə, tozcuqlar və ev tozları ən çox öskürək yaradan xəstəlik və faktorlardır. Öskürəyin şəkli, sıxlığı, inkişafı ciddi təqib edilməlidir.

**Öskürəyin tipləri və səbəbləri**

- **Quru öskürək** – əgər insan zəiflik, halsızlıq və quru öskürəkdən şikayət edirsə, bu bizə bəsit yuxarı tənəffüs yolu infeksiyasını xatırladır. Əgər əlamətlər uzun müddət (2-4 həftədən artıq) davam edirsə, digər xəstəliklər haqqında düşünmək olar.

– **Bəlğəmli öksürək**–öskürək bəlğəmli və tez-tez olursa, buna hərarət də qoşulmuşsa, sətəlcəmin (pnevmoniya) əlaməti ola bilər. Öskürdükdən sonra bayıra çıxarılan sekretin (bəlğəmin) rəngi xəstəliyi dəyərləndirməkdə həkimə böyük kömək edir. Bəlğəmin rəngi ağ rəngdən sarı və yaşıla çevrilirsə, bu xəstəliyin ağırlaşmasından xəbər verir. Qanlı bəlğəmdə isə hər şeydən əvvəl ağciyər xərçəngi və gecikmiş vərəm ağla gəlməlidir.

Öskürək refleksi gedişinə görə kəskin və xroniki olmaqla 2 qrupa bölünür:

- **Kəskin öskürək.** Əgər öskürək qəflətən baş verirsə uşaqlarda infeksiya və yad cismin nəfəs yoluna düşməsi haqqında fikirləşmək lazımdır. Böyüklərdə isə zərərli kimyəvi qazların tənəffüs yollarını qıcıqlandırması düşünülür.

- **Xronik öskürək.** Xronik, yəni uzunmüddətli (3 aydan uzun sürən) öskürək uşaqlarda astma, mukovissidoz (cystic fibrozis) adlı genetik xarakter daşıyan xəstəliklər zamanı rast gəlinir.

Yaşlılarda isə xroniki öskürək bəlğəmin ifrazı ilə müşayiət olunursa, bu halda astma, xroniki bronxit, xərçəng, vərəm, ürək çatışmazlığından şübhələnmək olar. Xroniki bəlğəmsiz öskürəyin səbəbləri bunlardır: sinusitlər, astma, qida borusu reflüksü və bəzi təzyiq dərmanlarının əlavə təsirləri.

Uzun müddət ərzində davam edən öskürək psixoloji də ola bilər. Bu öskürək narahatlıqla bağlı olaraq ortaya çıxa bildiyi kimi, həyəcanlandıqda və əsəbləşdikdə də ortaya çıxa bilir.

**Uşaq yaşlarında öskürək.** Uşaqlarda öskürək diqqət çəkmək istəyi ilə əlaqədar ola bilər.

Uşaqlarda göyöskürək xəstəliyində meydana çıxan öskürək ani, təkrarlanan və çox güclü olur. Tək bir nəfəsdə otuza qədər olan və nəfəsalmaya imkan verməyən təkrar tutmalar olur. Bu səbəbdən xəstə uşaq boğulmağa başlayır və göyərir. Belə kriz tutmaları gün ərzində 15-20 dəfə təkrarlana bilər. Bəzən belə tutmalar qusma ilə sona çatır. Qusma ilə bitən digər öskürək tipləri isə burun axıntısı ilə bağlı olan öskürəklərdir.

**Astma öskürəyi.** Öskürəyin gecə yuxudan oyandırıb-oyandırmadığı, həm uşaqlarda, həm də böyüklərdə astma xəstəliyinin təqib və müalicəsində çox önəmli bir göstəricidir. Əgər xəstə səhər erkən saatlarda səbəbsiz və ya quru öskürəklə oyanırsa, bu astma xəstəliyindən xəbər verə bilər və ya müalicə edilməkdə olan astma dərmanlarının dozalanmasının kifayət qədər olmadığının göstəricisidir. Belə xəstələrdə gün ərzində edilən müayinə nəticələri və tənəffüs testləri normal olur. Gecələr isə nəfəs yolları daralmış olur, yataqda olduqda burun axıntısı artır və səhər ayıldıqda ağciyərlərə yığılmış bəlğəmi xaric etmək üçün öskürək tutmaları qeyd edilir.

**Reflüks öskürəyi.** Reflüks xəstəliyi olan insanlarda gecələr uzanmış vəziyyətdə mədə şirəsi geriyə axır və nəfəs borusuna və səs tellərinə düşür. Belə vəziyyətdə quru və şiddətli öskürək yaranır.

**Yemək borusu xəstəlikləri zamanı yaranan öskürək.** Yemək yeyərkən yaranan öskürək, udma aktının (refleksinin) pozulması olan yaşlı və ya beyin fəaliyyəti pozulmuş insanlarda (məsələn, beyin iflici keçirmişlərdə) və ya yenidoğulmuş uşaqlarda anadangəlmə olan yemək borusu ilə nəfəs yolları arasında əlaqənin olması ilə bağlıdır. Yeməkdən sonra yaranan öskürəklər reflüks, mədə yırtığının əlaməti ola bilər.

**Siqaret öskürəyi.** Siqaret öskürəyi çox tipik bir öskürəkdir. İlk əvvəl quru başlayan və illər sonra siqaretin bronxlarda yaratdığı təbəqə (qat) ilə əlaqədar bol ifrazatlı, adət etdiyimiz şəklə düşür və adətən səhər vaxtlarında bəlğəm ifrazı ilə müşayiət olunur. Belə öskürək təkrarlanan olur və bəlğəm bayıra atıldıqda insan rahat nəfəs alır. Siqaret çəkənlərdə qeyd edilən öskürək mütləq araşdırılmalıdır (ağciyər xərçəngi, bronx xərçəngi, səs tellərinin xərçəngi olma riski yüksəkdir). Bəlğəmdəki qan, yeni yaranan və dərinləşən səs batması (səsdə xırıltılar) xərçəngin əlamətləri ola bilər.

Siqaret çəkən insanlar ardıcıl olaraq iki ildə 3 aydan çox bəlğəmli öskürüb bəlğəm ifraz edirlərsə, buna XOAX (xroniki obstruktiv ağciyər xəstəliyi) deyilir. XOAX həyat keyfiyyətini (fəaliyyətini) aşağı salan bir xəstəlikdir.

Öskürəyin müalicəsi çox zaman sadə olur. Lakin bəzən xəstəlik dərinləşir və ağırlaşır, antibiotik müalicəsi lazım gəlir.

Astma ilə əlaqəli öskürək antibiotik müalicəyə cavab vermir. Bu xəstələrdə inhalyasiya və antiallergik dərmanlar təyin edilir.

Allergiyalı insanların dörddə birində reflüks xəstəliyinin olması mümkündür. Belə vəziyyətlərdə mütləq endoskopiya edilməli və antiasid preparatlar təyin edilməlidir.

Reflüksü olan və müalicəyə baxmayaraq gecə öskürəyi olan xəstələrə axşam az qida qəbul etmək və yeməkdən ən azı 4 saat sonra yatmaq məsləhət görülür. Belə xəstələr mütləq hündür yastıqda yatmalıdır.

Ürək çatışmazlığı ilə əlaqəli müalicə alan xəstələrdə gecə öskürəyi hələ də varsa, mütləq həkimə müraciət edilməlidir. Bu öskürək müalicənin yetərli olmadığını və ya xəstəliyin ağırlaşdığından xəbər verir.

**Günel ASLANOVA**

# Tədris Cərrahiyyə Klinikasında beynəlxalq simpozium keçirildi

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "I Azərbaycan-Türkiyə Kolorektal Cərrahiyyə Günləri" keçirildi. Qeyd edək ki, simpozium Türkiyə Kolorektal Cərrahiyyə Dərnəyi və ATU-nun Kolorektal Cərrahiyyə Dərnəyinin birgə təşkilatçılığı ilə təşkil olunub.



Tədbirdə giriş sözü ilə çıxış edən ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov beynəlxalq konfransın əhəmiyyətindən bəhs etdi. Bu cür konfransların təşkilinin həm alimlər arasında əlaqələrin daha da genişləndirilməsinə, həm də dünyanın hər yerindən olan mütəxəssislərlə fikir və təcrübə mübadiləsi aparmağa kömək etdiyini dedi: "Bu tip simpozium və elmi konfranslarda tibbdə olan son nailiyyətlər, yeniliklər barədə məlumatları açıqlayır, hər birimiz öz təcrübəmizi paylaşa bilirik. Tədris Cərrahiyyə Klinikası olaraq hədəfimiz dünyanın aparıcı klinikası səviyyəsinə çatmaqdır. Bu məqsədlə xarici əlaqələrimizdən faydalanırıq".

N.Bayramov həmçinin ölkəmizdə kolorektologiya sahəsində əldə olunan nailiyyətlərdən danışdı. O, Türkiyədən gəlmiş qonaqları simpozium iştirakçılarına uğurlar dilədi.

Tədbirin davamında ATU-nun II cərrahi xəstəliklər kafedrasının müdiri, akademik Böyükkişi Ağayev də Azərbaycan Tibb Universitetində ənənəvi olaraq xarici ölkə mütəxəssislərinin iştirakı ilə bu cür elmi toplantıların keçirildiyini bildirdi. Qeyd olundu ki, ilin əvvəlindən indiyədək klinikada tibbin müxtəlif sahələri üzrə 5 beynəlxalq konfrans təşkil olunub. Növbəti aylarda da yerli və xarici ekspertlərin iştirakı ilə elmi konfransların keçirilməsi nəzərdə tutulur.

Daha sonra simpozium işini türkiyəli mütəxəssislərin maraqlı mövzularda mühazirələri ilə davam etdirdi. "Türkiyə kolorektal xərçəng skrininq təcrübəsi", "Rektum xərçənginin müalicəsində daha az ilə kifayətlənə bilərikmi?", "Lokal yayılmış və residiv rektum xərçənginə yanaşma", "Kolorektal xərçəng mənşəlli qaraciyər metastazlarının müalicəsi" və digər mövzularda məruzələr dinlənildi. Ankara Numune Eğitim və Araşdırma xəstəxanasından dosent Dr. Ahmet Serdar Karaca, Ankara Universiteti Tibb Fakültəsinin professoru Dr. İbrahim Ethem Geçim və dosent Dr. Deniz Balcı, Türk Kolon və Rektum Cərrahi Dərnəyi Başqanı professor Dr. Selman Sökmenin çıxışları maraqla qarşılandı. Müzakirələr zamanı dünyada, həmçinin Türkiyədə və Azərbaycanda kolorektologiyanın problemləri barədə diskussiya aparıldı. Hər il kolorektal xərçəngdən əziyyət çəkən bir milyon insanın qeydə alındığı bildirildi.

**ATU-nun mətbuat xidməti**

# Xarici ölkə vətəndaşları ilə anım tədbiri keçirildi

Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunan bir sıra anım tədbirləri keçirilib.




"Tibbi biologiya və genetika" kafedrasında ingilis bölməsində təhsil alan xarici ölkə vətəndaşları ilə də anım tədbiri keçirildi. Xocalı soyqırımı qurbanlarının xatirəsi, ehtiram əlaməti olaraq, 1 dəqiqəlik sükutla yad edildi. Anım tədbirini giriş sözü ilə açan kafedranın baş müəllimi Leyla Süleymanova Xocalı qətliamından, erməni işğalının tarixindən, həmçinin Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verdi. Tədbirdə erməni işğalçılarının rus hərbi qüvvələri ilə birləşərək dinc əhaliyə qarşı törətdikləri insanlığa sığmayan vəhşiliyi, erməni cinayətlərini əks etdirən film nümayiş etdirildi. Tədbirin sonunda "Tibbi biologiya və genetika" kafedrasının müdiri, professor Canbaxış Nəcəfov və xarici tələbələrlə iş üzrə dekan müavini Niyazi Hacızadə çıxış edərək, bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışdılar və xalqımızın bu faciəni heç vaxt unutmayacağını söylədilər.

# Kafedrada Xocalı faciəsi tədbirlərlə yad edildi

**Fevralın 23-də və 26-da Xocalı faciəsinin 24-cü ildönümü münasibəti ilə Azərbaycan dili kafedrasında tədbir keçirilib. Birinci tədbirdə 50-dən artıq tələbə və müəllim iştirak edib. Əvvəlcə tələbələr 24 il qabaq törədilmiş faciəni əks etdirən jurnalist yazıları, kitablar, video-görüntülərlə tanış edilib.**

Sonra kafedra müdiri, dosent Akif Miriyev "1992-ci il Xocalı faciəsi və qonşularımızın işğalçılıq siyasəti" adlı mövzu ilə çıxış edib. Akif müəllim Azərbaycan torpaqlarına ermənilərin xəbis münasibətinin tarixi köklərindən danışıb və gündən-günə artdığını deyib. Azərbaycanlıların faciələrini İran xalqının öz faciəsi kimi qəbul etdiyini və hər zaman bunu törədənləri lənətlədiklərini bəyan edib. Natiq Xocalı faciəsi haqqında İranda hamının məlumatlı olduğunu diqqətə çatdırıb və o, rəhbərlik etdiyi təşkilatın Xocalı soyqırımı ilə bağlı hazırladıqları bəyanatın tam mətni ilə iştirakçıları tanış etmək üçün sözü Stomatologiya fakültəsinin tələbəsi Əli Pişqədəmə verib. Bəyanatda iranlı tələbələrin xalqımızın dərdinə yaxından şərik olduq-





onların törətdiyi bu faciə ilə bağlı səsimizin hələ də dünya ictimaiyyəti tərəfindən eşidilmədiyinin səbəblərini diqqətə çatdırıb.

Fevralın 26-da isə 100-ə yaxın tələbə və müəllimin iştirakı ilə keçirilən tədbir İranlı Tələbələrin Elmi-Mədəni və İdman Birliyinin yaxından iştirakı ilə təşkil olunub. Birliyin sədri Zoheiv Mirzayani söz alaraq, İranla Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin ları, faciəni törədənlərin tezliklə cəzalandırılmalı olduğun vacibliyi vurğulanıb.

Hər iki tədbirdə faciə qurbanlarının ruhu iştirakçılar tərəfindən bir dəqiqəlik sükutla yad edilib.

Tədbir tələbələrin təqdimatında faciəmizi əks etdirən şeirlərlə sona çatıb.

**F.HACIYEVA**
*Azərbaycan dili kafedrasının laborantı*

# Şərəfli ömür yolu

Bu ilin mart ayının 3-də epidemiologiya kafedrasının professoru, biologiya elmləri doktoru, professor Fərid Paşa oğlu Ələkbərovun anadan olmasının 75 ili tamam olacaq.

F.Ələkbərov 1941-ci ilin martın 3-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, 1948-ci ildə Bakı şəhərində 8 saylı orta məktəbə daxil olmuş və 1958-ci ildə oranı bitirmişdir. 1958-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU)biologiya fakültəsinə daxil olmuş və 1963-cü ildə oranı bitirib, Elmi Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutuna elmi işçi vəzifəsinə qəbul edilmişdir. 1968-ci ildə "Lənkəran fiziki-coğrafi vilayətində xırda məməli heyvanların ekologiyası və leptospirozun təbii ocaqlarında onların rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1981-ci ildə "Hebdomadis leptospirozunun təbii ocaqları və landşaftlarının antropogen transformasiyası (Şərqi Zaqafqaziya timsalında) mövzusunda Tbilisidə doktorluq dissertasiyası müdafiə etmişdir.

1969-cu ildə həmin institutda baş elmi işçi vəzifəsinə seçilmişdir.

1974-cü il fevral ayında N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) epidemiologiya kafedrasına müsabiqə yolu ilə assistent vəzifəsinə seçilmişdir.

Bu andan etibarən onun həyatı tibb institutu ilə bağlanır ki, burada o, assistentdən kafedranın professoruna qədər bir yol keçir. Epidemiologiya kafedrasında 26 illik əmək fəaliyyəti F.Ələkbərovu ölkədə və ölkə xaricində məhşur leptospiroloq alim, yüksək erudisiyalı pedaqoq, bacarıqlı təşkilatçı etmişdir.

Onun bu səviyyədə yetişməsində əməkdar elm xadimi, professor T.Tağızadənin xüsusi əməyi olmuşdur. F.Ələkbərovun Azərbaycanda leptospiroz xəstəliyinin öyrənilməsində xüsusi zəhməti olmuşdur. O, 150-dən artıq elmi məqalə, monoqrafiya, metodik göstəriş çap etdirmiş, dəfələrlə SSRİ və Azərbaycan SSR Səhiyyə Nazirliyinin fəxri fərmanları ilə təltif etmişdir. Onun rəhbərliyi altında çoxsaylı namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur.

F.Ələkbərov gözəl və böyük təcrübəsi olan müəllim kimi öz mühazirələrini təkcə həddindən artıq aydın, səlis və sadə dildə şərh etməyi deyil, həm də tədris materiallarını həmişə dünya tibb elminin ən yeni nailiyyətləri ilə məharətlə əlaqələndirərək, tələbələrdə dərsə canlı maraq oyatmağı, onların dünyagörüşünü genişləndirməyi bacarırdı.

Professor P.Ələkbərovun böyük təşkilatçılıq qabiliyyəti diqqətdən qaçmamışdır.

Əvvəlcə kafedranın partiya qrupunun rəhbəri,sonra fakültə partiya bürosu katibinin müavini, 1982-ci ildən isə partiya bürosunun katibi seçilmişdir. Onun bu işdəki qabiliyyəti nəzərə alınaraq 1985-ci ildə xarici tələbələrlə iş üzrə dekan təyin edilmişdir. 1992-ci ilin fevral ayından isə o, xarici əlaqələr üzrə prorektor vəzifəsinə irəli çəkilmişdir.

F.Ələkbərov uzun illər dissertasiya şurasının və Azərbaycan epidemioloqları, mikrobioloqları və parazitoloqları elmi cəmiyyətinin elmi katibi olmuşdur. Professor F.Ələkbərovun zəngin bilik və təcrübəsi, tükənməz enerjisi onun müxtəlif ictimai işlərdə, elmi-praktik cəmiyyətlərin işində fəal iştirak etməsinə zəmin yaratmışdır.



Professor F.Ələkbərov Azərbaycanda və xarici ölkələrdə səhiyyənin aktual problemlərinə həsr edilmiş bir sıra beynəlxalq konfransların iştirakçısı olmuşdur. F.Ələkbərovun tibb elminin və respublika səhiyyəsinin inkişafında mühüm xidmətləri vardır.

Bununla yanaşı o, respublikada baytarlıq sahəsində leptospiroz xəstəliyinin öyrənilməsində və kadr hazırlığında da çox mühüm işlər görmüşdür.

Onun ən gözəl keyfiyyətlərindən biri də insanı dinləmək mədəniyyəti, yüksək dünyagörüşü, auditoriyanı ələ almaq bacarığı idi.

Böyük alim, görkəmli elm xadimi və səhiyyə təşkilatçısı, sadə və təvazökar insan, yaxşı dost və məsləhətçi təəssüflər olsun ki, ömrünün çiçəkləndiyi bir vaxtda, 1999-cu il dekabr ayının 12-də 59 yaşında həyatdan vaxtsız köçdü.

Bu görkəmli alim, gözəl insan onu tanıyanların, tələbələrinin və epidemiologiya kafedrasının əməkdaşlarının yaddaşında daim yaşayacaqdır.

**İbadulla AĞAYEV,**
*Epidemiologiya kafedrasının müdiri, ə.e.x, professor*

# Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyinin Xocalı faciəsinin 24-cü ildönümü ilə bağlı bəyanatı

24 il bundan əvvəl Azərbaycanın dilbər guşəsi Qarabağda – əhalisinin sayı 7000 nəfər olan Xocalı adlı bir şəhərdə misli görünməmiş dəhşətli bir soyqırımı hadisəsi baş verdi. Erməni silahlı birləşmələrinin törətdikləri bu vəhşilik nəticəsində 106 qadın, 63 uşaq və 70 qoca olmaqla, 613 dinc sakin amansızcasına qətlə yetirildi, 1000 nəfər yaralandı, 1275 nəfər əsir və 150 nəfər isə itkin düşdü.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsi idi.

Təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı törədilmiş belə dəhşətli soyqırımı aktlarına baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz qiymətini almayıb. İkili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, bu hadisə xüsusi beynəlxalq komissiya tərəfindən araşdırılmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən genosid aktı kimi tanınmalı, cinayət törədənlərə qarşı sanksiyalar tətbiq edilməlidir.

Artıq 24 ildir dünya, o cümlədən İran xalqı Xocalı faciəsini Azərbaycan xalqı ilə birgə yad edir, konfranslar, tədbirlər, sərgilər təşkil etməklə, Azərbaycanla həmdərd olduğunu nümayiş etdirir. Biz, iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyi olaraq XX əsrdə ən ağır beynəlxalq terror cinayətlərindən biri hesab olunan Xocalı faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ cinayətləri pisləyirik. Əmin olduğumuzu bildirmək istəyirik ki, gec-tez haqq-ədalət öz yerini tapacaq və Xocalı soyqırımını törədən cinayətkarlar öz cəzalarına çatacaqlar.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# Endokrinologiya üzrə elmi-praktik seminar

**Fevralın 17-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikası ilə Tədris Terapevtik Klinikasının birgə iştirakı nəticəsində Endokrinologiya üzrə elmi-praktik seminar keçirilib.**

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, I Cərrahi Xəstəliklər kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Nuru Bayramov tədbiri açaraq, seminar iştirakçılarına uğurlar diləyib. “Əvvəllər Tibb Universitetinin müxtəlif klinikaları yox idi, bütün kafedralar respublikanın ayrı-ayrı hissələrində yerləşirdi. Biz bu dövlət klinikalarında çalışırdıq.” - deyə, N. Bayramov bildirib.

N.Bayramov həmçinin universitetin qarşısında duran vəzifələrdən də söz açıb. O bildirib ki, bu vəzifələrdən birincisi, təhsil, ikincisi praktika, üçüncüsü isə elmdir: “Artıq bizim 4 klinikamız var. Axırıncı Tədris Cərrahiyyə Klinikası fəaliyyətə başladıqdan sonra imkanlarımız daha da genişləndi. İndi işimizi daha rahat apara bilirik. Həmçinin artıq bizim universitetə xaricdən gələn gənc nəslin sayı da gündən-günə artır”.

N.Bayramovun sözlərinə görə, indi dünyada təbabətin inkişafı yüksək səviyyədə ixtisaslaşmış briqadaların sayəsində mümkün olur: “Və biz də bu hədəfi seçdik. Terapevtlər və cərrahlar bir olmalı, ortaq işlər ortaya çıxarılmalıdır. Bu istiqamətdə artıq bizim klinikada bir neçə sahədə toplantılar keçirilib. I hepatoloji qrup bu gün nəinki toplanıb, hətta onların seminarları da keçirilib. Keçən il isə İstanbulda seminar keçirilib. II praktoloqlar qrupu da artıq bir neçə seminar təşkil ediblər. III Bariatik cərrahlar və endokrinoloqlar da artıq öz işlərinə başlayıblar və bu işi uğurla davam etdiriləcək.






Sonda direktor birləşmələrdə iştirak edən bütün həkimlərə uğurlar diləyərək, belə seminarların davamlı olmasını arzuladığını bildirib.

Daha sonra ATU-nun I cərrahi xəstəliklər kafedrasının dosenti, cərrah-endokrinoloq Abbas Abbasov çıxış edərək seminarın mahiyyətindən danışıb: “Seminar ilk olaraq bir-birimizi daha yaxından tanımaq, kollektiv şəklində çalışmaq üçündür”.

Tədbirin davamında müxtəlif mühazirələr dinlənilib. Mühazirələr “Endemik ura endokrinoloqun baxışı” (III daxili xəstəliklər kafedrasının assistent həkim-endokrinoloq Könül İsmayılova), “Düyünlü urda İncə İynə Aspirasion Biopsiyanın əhəmiyyəti” (I cərrahi xəstəliklər kafedrasının t.ü.f.d. cərrah-endokrinoloq Azər Hümmətov), “Qalxanabənzər vəzi düyünü sitoloji müayinə rəyinin həkim taktikası seçilməsində əhəmiyyəti: müasir standartlar” (Mərkəzi Kömrük Hospitalı, patohistoloq İlqar Həsənov), “Düyünlü ura cərrahın baxışı” (I cərrahi xəstəliklər kafedrasının dosenti, cərrah-endokrinoloq Abbas Abbasov) mövzularını əhatə edib.

**ATU-nun mətbuat xidməti**

## İstənilən orqanın vəziyyətini dəqiq müayinə edən sensor yaradılıb

ABŞ-ın Vaşinqton və Illinoys universitetlərinin əməkdaşları tərəfindən beyinə implantasiya edilən simsiz sensorlar hazırlanıb.



Azərbaycan Milli Elmlər Akademiyasından AZƏRTAC-a bildiriblər ki, hitech.newsru.com saytının məlumatına görə, yeni tip sensorlar zərurət yarandıqda kəllədaxili temperatur, təzyiq, turşuluq dərəcəsi daxil olmaqla, müxtəlif parametrlərin müayinəsini həyata keçirməyə imkan verir.

Yeni texnologiyada böyük ölçülü naqilli sensorlarda olan çatışmazlıqlar (infeksiya keçirmə və toxumaların arzuolunmaz reaksiyası) yoxdur. Alimlərin sözlərinə görə, yeni həll istənilən orqanın vəziyyətinin monitorinqində istifadə edilə bilər. Yaxın vaxtlarda yeni texnologiya insanlar üzərində sınaqdan keçiriləcək.

## Ankarada keçirilən anım mərasiminin iştirakçıları Xocalı soyqırımı barədə məlumatlandırılıblar

**Xocalı soyqırımının iyirmi dördüncü ildönümü ilə əlaqədar Azərbaycanın Türkiyədəki səfirliyinin təşkil etdiyi tədbirlər çərçivəsində Ankaranın Qızılcahamam rayonunda yerləşən Xocalı Abidə və Muzey Kompleksində anım mərasimi keçirilib.**

Tədbirdə səfirliyin əməkdaşları, Ankarada təhsil alan tələbə və kursantlarımız, diaspor və ictimaiyyət nümayəndələri, KİV təmsilçiləri və Qızılcahamam rayonunun sakinləri iştirak ediblər.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın və Türkiyə himnləri səsləndirilib.

Türkiyə Baş nazirinin müavinləri Lütfi Elvan və Numan Kurtulmuşun tədbirə ünvanladıqları məktublar oxunduqdan sonra çıxışlar olub.

Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov, Qızılcahamam rayon bələdiyyəsinin başçısı Muhittin Güney, tələbə və kursantlarımız çıxışlarında Xocalı soyqırımı, ümumiyyətlə ermənilərin xalqımıza qarşı uzun zaman kəsiyində törətdikləri vəhşiliklər barədə məlumat veriblər.




Səfir Xocalı Abidə və Muzey Kompleksinin Azərbaycan ilə Türkiyənin birgə qan yaddaşını nümayiş etdirdiyini bildirib, Xocalıda törədilmiş soyqırımının daim yaddaşlarda qalmasının vacibliyini diqqətə çatdırıb.

Tədbirdə Xocalı soyqırımı ilə bağlı iştirakçılara əyani vəsaitlər paylanılıb.

### Etibarsız sayılır

Məmmədova Tahirə Ağalar qızına 1992-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, 887[c] qrup tələbəsi Rasool Ahmed Riyadhın adına Azərbaycan Respublikasında müvəqqəti yaşamağa görə verilmiş miqrasiya kartı itdiyi üçün etibarsız sayılır.

Məmmədova Təranə Əhməd qızına 1987-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 90[c] qrup tələbəsi Abuşova Leyla İslam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 70[a] qrup tələbəsi Cabbarlı Aqşin Aqil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 35[b] qrup tələbəsi Rəhimova Cəmilə Əmrah qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əlirzayev Aqil Arif oğlunun adına 2008-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abbasova Əminə Mirəhməd qızına 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 296